# "Xocalıya ədalət"

http://www.amu.edu.az

# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 04 (1579) 28 fevral 2014 - cü il Qiyməti 40 qəpik


# Xocalı faciəsi əsrlər boyu Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı siyasətinin ən qanlı səhifəsidir

## Prezident İlham Əliyev faciə qurbanlarının xatirəsini anma mərasimində iştirak etmişdir

İyirmi iki il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətmişlər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak etmişdir.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.




## Bu sayımızda




# BÖYÜK ELMİ ŞURADA

**Fevralın 24-də Böyük Elmi Şuranın növbəti yığıncağını açan universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının 22-ci ildönümünün geniş miqyasda anıldığını, bu məqsədlə ölkəmizdə və xaricdə silsilə tədbirlərin keçirildiyini dedi. Faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.**



Bundan sonra "Azərbaycan Tibb Universitetində 2013/2014-cü tədris ilinin qış imtahan-məqbul sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri" barədə tədris işləri üzrə prorektor, professor Sabir Əliyevin hesabatı dinlənildi.

Ali təhsilin yeni normativ hüququ bazasının yaradılması, ali tibb təhsilin əsas təhsili və rezidentura pillələrinin məzmunu və təlim texnologiyalarının müasirləşdirilməsi, kredit sistemi ilə tədrisin təşkilinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarı ilə «Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları»nın və 23 noyabr 2013-cü il tarixli 330 nömrəli qərarı ilə isə «Rezidentura təhsilinin məzmunu və

(davamı səh. 3-də)

## Tibb Universitetində Xocalı faciəsi ilə bağlı silsilə anım tədbirləri keçirilib






səh. 2, 6

## Azərbaycan Tibb Universitetinin kollektivi

Xocalı soyqırımı ilə əlaqədar xalqımıza dərin hüznlə başsağlığı verir, şəhidlərimizə Allahdan rəhmət diləyir!



Təbib



# XOCALI SOYQIRIMININ 22-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ ANIM MƏRASİMİ KEÇİRİLİB

**Fevralın 24-də ATU-nun Tədris Terapevtik Klinikasında Xocalı soyqırımının 22-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Tədbiri universitetin rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov açıb və Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Xocalı soyqırımını tarixdə baş vermiş soyqırımların ən dəhşətlisi adlandıran rektor həmin gün insanların xüsusi qəddarlıqla qətlə yetirildiyini, artıq bu faciənin təkcə Azərbaycanda deyil, dünyanın inkişaf etmiş ölkələrində də anıldığını bildirib. O, rus-erməni hərbi birləşmələri tərəfindən törədilən bu qanlı faciəyə ancaq ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ictimai-siyasi qiymət verildiyini vurğulayıb: "Xocalı soyqırımı bütövlükdə tarixdə baş vermiş soyqırımı hadisələri arasında xüsusi qəddarlıqla törədilmiş bir soyqırımıdır. Bunu təkcə Azərbaycan deyil, dünya dövlətləri, dünya parlamentləri də qəbul edirlər. Faciə törədilən vaxt baş verənləri gizlətmək, dünyasını dəyişənlərin sayını azaltmaq cəhdləri olub. Əvvəlcə mətbuatda bir neçə nəfərin həlak olduğunu yazırdılar. Sonra məlum oldu ki, amansızlıqla qətlə yetirilənlərin sayı qat-qat çoxdur. Azərbaycan və dünya mətbuatında reallığa yaxın məlumatlar yayılmağa başladı. Mütləq deməliyəm ki, Xocalı soyqırımına ictimai-siyasi və hüquqi qiymət verilməsi yalnız ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndən sonra mümkün oldu. Hadisələr çox ciddi araşdırıldı, günahkarların cəzalandırılması barədə məsələ qaldırıldı. Artıq tam təsdiq edilibdir ki, faciə rus hərbi birləşmələrinin birbaşa köməyi ilə törədilib. Hər il möhtərəm prezidentimiz İlham Əliyev Sərəncam imzalayır, Azərbaycanın xarici ölkələrdəki səfirlərinə, diasporlarına tapşırıq verilir ki, Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırsınlar".

İnsan anatomiyası kafedrasının professoru, Xocalı sakini Mübariz Allahverdiyev özünün də şahidi olduğu hadisələrdən danışaraq qeyd edib ki, Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə şovinist erməni millətçilərinin azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirdikləri etnik təmizləmə və soyqırım siyasətinin davamı və ən qanlı səhifəsidir: "Son yüzillikdə 3 dəfə soyqırıma məruz qalan Xocalı Dağlıq Qarabağda strateji əhəmiyyət kəsb edən bir mövqedə idi. Xocali qədim yaşayış məskəni kimi eradan əvvəlki XIV yüzillikdə mövcud olub. Ermənilərin Xocalını 25-26 fevral 1992-ci ildə genosidə uğratması sayca üçüncü idi. Birinci genosid 1905-1906-cı illərdə, ikinci genosid 1918-1919-cu illərdə baş verib. Hər dəfə də sağ qalan xocalılar özlərində güc taparaq doğma yurd yerinə qayıdıb, dədə-baba torpaqlarında yaşayıblar.

1992-ci il genosidinə yetmək üçün ermənilər 4 il ərzində Xocalını blokadada saxladılar. 1988-ci il fevralın 12-13-də mitinqlərə başlayan erməni separatçılarının sentyabrın 18-də Xocalıya ilk kütləvi hücumu oldu. Həmin gün 10 mindən çox erməni ilə üz-üzə qalan xocalılar torpaqlarını qoruya bildilər, çünki o hücumda rus hərbçiləri iştirak etmirdilər.

1991-ci ilin noyabrından etibarən Xocalıya gələn bütün yollar bağlandı. Ara-sıra mülki vertolyot uça bilirdi. Yanvarın 28-də Şuşaya uçan mülki vertolyot da ermənilər tərəfindən vuruldu. 4 ay ərzində Xocalı azuqəsiz, silahsız qalsa da özünü müdafiə edirdi. Təəssüf ki, Azərbaycanın o vaxtkı rəhbərləri torpaqlarımızın birbir əldən getməsinə biganəliklə yanaşırdılar. Xocalı soyqırımı törədilənə qədər Malıbəyli, Quşçular, Meşəli, Cəmilli, Qaradağlı və digər kəndlər dağıdılmış, viranəyə çevrilmişdir.

Ermənilər uzun müddət hazırladıqları çirkin etnik təmizləmə planını 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda həyata keçirdilər. Onlar qışın qarlı-şaxtalı çağında gecə yarısı keçmiş SSRİ-nin Xankəndində dislokasiya olunmuş 366-cı motoatıcı polkunun ölümsaçan silahları ilə Xocalını bomba, mərmi, güllə yağışına tutdular. Yuxulu insanlar, köməksiz qadınlar, uşaqlar, qocalar nə edəcəklərini bilmirdilər. İki saat aramsız ağır artilleriya atəşindən sonra general Seyran Ohanyanın başçılıq etdiyi alay Ermənistan silahlı qüvvələri ilə birlikdə Xocalıya girdilər.

Əhalinin bir hissəsi elə bilmişdi ki, bu, hər gün baş verən atışmadır, bir azdan sakitləşəcək. Ona görə də xeyli sayda insan qaçıb zirzəmilərdə gizlənmişdi. Ermənilər onları kütləvi surətdə elə orada qırdılar. Sağ qalanlar qarlı dağlara, meşələrə üz tutub Ağdam tərəfə yol axtarırdılar. Ermənilər guya xocalılara qaçmaq üçün bu yolu dəhliz qoymuşdular. Əslində isə bu bir tələ idi. Əhali bumbuz çaydan, meşədən keçib Naxçıvanik yaxınlığına çatanda pusquda dayanmış erməni silahlıları onları kütləvi surətdə amansızlıqla qətlə yetirdilər.

Girov götürdükləri 1275 nəfərə ağır işgəncələr verdilər. Cavan oğlanların gözlərini çıxardılar, erməni qəbirlərinin üstündə başlarını kəsdilər. Ağaclara sarıyıb "Qarabağ Ermənistan torpağıdır" deməlerini tələb etdilər. Ancaq o gənclər ölümün gözünə dik baxaraq son nəfəslərində də "Qarabağ Azərbaycan torpağıdır" deyib əbədiyyətə qovuşdular".

Dövləti cinayətin cəzasız qalmayacağına inandığını söyləyən M.Allahverdiyev beynəlxalq təşkilatları, dünya dövlətlərini, parlamentlərini Xocalı soyqırımına siyasi-hüquqi



qiymət verməyə, hamını 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış "Xocalıya ədalət" kampaniyasına qoşulmağa çağırıb.

Yeni Azərbaycan Partiyasının (YAP) Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət xanım Həsənova fevral ayının bütövlükdə Xocalı ayı kimi yadda qaldığını, hətta bu ayda toyların da səngidiyini deyib. Eyni zamanda dövlətimizin, cənab Prezidentin gördüyü işlərin öz bəhrəsini verəcəyinə və qaçqınlarımızın tezliklə doğma yurdlarına qayıdacağına əminliyini mərasim iştirakçıları ilə bölüşüb.

Xatırladaq ki, Xocalı soyqırımı zamanı adları bəlli olan 613 nəfərin, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qocanın həyatına son qoyulub. 478 dinc sakin ağır yaralanaraq şikəst olub, 1275 nəfər əsir və girov götürülüb. İtkin düşmüş 150 nəfərin taleyi indiyədək məlum deyil. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailə bütünlüklə məhv edilib, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynlərinin birindən məhrum edilib, mülki əhali görünməmiş vəhşiliklə qətlə yetirilib, əsir və girov götürülənlərə amansız işgəncələr verilib.

**A.KAMRANOĞLU**

# Qan yaddışımız

◆ Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşmiş, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etmişlər.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirilmiş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 155 nəfərin taleyi isə hələ də məlum deyildir. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini itirmişdir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirmişdir.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri vardır. Fondun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən "Xocalıya ədalət!" kampaniyası uğurla davam edir. Kampaniyanın məqsədi Xocalı qətliamının insanlığa qarşı törədilmiş ən böyük cinayət kimi beynəlxalq ictimaiyyət tərəfindən tanınmasıdır.

Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunmuşdur. Bu işğalçı ölkənin terrorçuluq siyasəti uzun illərdir dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüquq normalarına, BMT və ATƏT-in prinsiplərinə görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir. Ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi haqqında 4 qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ ki, yerinə yetirmir.

Xocalı soyqırımını törətməklə erməni millətçiləri Azərbaycan xalqını qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqlarının işğalı faktı ilə barışmağa məcbur etmək kimi məkrli məqsədlər güdmüşdür. Amma hiyləgər və amansız düşmənin niyyətləri baş tutmadı, xalqımız dövlətin suverenliyinin müdafiəsində yüksək qəhrəmanlıq nümunəsi göstərdi.

Azərbaycan xalqı qəti əmindir ki, hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilmiş, dünyada mövqeyini daha da möhkəmləndirmiş, hərbi qüdrətini təmin etmiş dövlətimiz düşmən tapdağı altında olan torpaqlarını istənilən yolla azad edəcək, şəhidlərimizin qanı yerdə, günahkarlar isə cəzasız qalmayacaqdır.

# BÖYÜK ELMİ ŞURADA

(əvvəli səh. 1-də)

təşkili Qaydaları»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli qərarında dəyişiklik edərək adı gedən Qaydaları yeni redaksiyada təsdiq etdiyini xatırladan natiq bildirdi ki, Azərbaycan Respublikası Təhsil naziri «Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları»nın icrası məqsədilə 21 yanvar 2014-cü il tarixli 40 nömrəli əmr imzalamışdır. Əmrə əsasən indiyə qədər icrada olan kredit sistemi ilə tədrisin təşkili və biliyin çoxballı qiymətləndirilməsinə dair iki Əsasnamə qüvvədən düşmüşdür. Cari semestrdən isə yeni Qaydaların icrası -məqsədilə ali təhsil müəssisələri qarşısında bir sıra





vəzifələr qoyulmuşdur.

«Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları»nın tətbiqi və Təhsil nazirinin müvafiq əmrinin icrası məqsədilə universitet rektoru 30.01.2014-cü il tarixli 36/T nömrəli əmr vermişdir. Əmrdə fakültə dekanlarına, tədris hissəsinə müəyyən tapşırıqlar vermişdir. Yeni Qaydaların öyrənilməsi, fakültə və kafedralara paylanılması, tələbələrin tanış edilməsi və icrasına nəzarət əmrdə öz əksini tapmışdır.

Sözünə davam edən S.Əliyev dedi ki, bütün bunlarla yanaşı ölkə Prezidentinin «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə milli strategiyanın təsdiq edilməsi barədə» Sərəncamına müvafiq olaraq ölkənin təhsil sferasında, o cümlədən ali təhsil müəssisələrində də geniş miqyaslı tədbirlər həyata keçirilir, tədris proqramına müəyyən dəyişikliklər edilərək təlim aparılır.

Qış imtahan-məqbul sessiyasının nəticələrini diqqətə çatdıran prorektor bildirdi ki, klassik qaydada imtahan verən tələbələr 2384 (keçən il 6072) halda imtahanda iştirak etmiş, 322-13,5% (keçən il 627-10,3%) halda imtahana gəlməmiş, 24-1,1% (keçən il 304-5%) halda isə imtahana buraxılmamışdır.

Bundan başqa kredit sistemi üzrə 35603 (keçən il 27599) halda tələbələr imtahanda iştirak etmiş, 7613 (keçən il 3781) halda "əla", 11446 (keçən il 8659) halda "çox yaxşı", 7809 (keçən il 7506) halda "yaxşı", 4372 (keçən il 4344) halda "kafi", 1829 (keçən il 1670) halda "qənaətbəxş", 382 (keçən il 377) halda "qeyri-məqbul" əldə olunmuş, 1014 (keçən il 560) halda tələbə imtahanda iştirak etməmiş, 1138 (keçən il 702) nəfər isə imtahana buraxılmamışdır.

Klassik qaydada aparılan imtahanın nəticələrinə görə 433 (18,1%) halda "əla" (keçən il 15,2%), 987 (41,4%) halda "yaxşı" (keçən il 40,1%), 488 (20,5%) halda "kafi" (keçən il 24,3%) və nəhayət 130 (5,4%) halda "qeyri-kafi" (keçən il 5,1%) qeyd edilmişdir.

Rəqəmlərə fikir versək, keçən ilin müvafiq dövrü ilə müqayisədə klassik qaydada imtahan verənlər arasında "əla"ların 2,9% çoxaldığını, akademik borcu qalan tələbələrin 0,5% azaldığını görərik. Akademik borcun böyük bir qismini- (13,5%) imtahana gəlməyənlər təşkil etmişdir.

O, test üsulu ilə kompyuterlərlə aparılan imtahanların kəmiyyət, xüsusən də keyfiyyət göstəricilərinin xeyli yaxşılaşdığını söyləyərək dedi ki, bu üsul öz obyektivliyi, şəffaflığı, ədalətli olması, tələbələr üçün bərabər şəraitin yaradılması, subyektiv təsirlərin aradan qaldırılması, ictimai rəyin müsbət istiqamətdə dəyişməsi ilə fərqlənir.

Bu sistem üzrə ilkin mənimsəmə göstəricisi - 76,1% (keçən il 82,1%), keyfiyyət göstəricisi isə 42,2% (37,5%) təşkil edir. Rəqəmlərdən aydın olur ki, ilkin mənimsəmə göstəricisi 6,0% azalmış, keyfiyyət göstəricisi isə 4,7% yüksəkdir.

Bununla yanaşı kompyuter vasitəsilə test üsulu ilə aparılan imtahanların təkmilləşdirilməsinə də ehtiyac vardır. Belə ki, tərtib edilən testlərin düşündürücü olması, onlara situasiya məsələlərinin daxil edilməsi, tapmaca, əzbərləmə elementlərinin aradan götürülməsi və s. əsas məsələlərdən biri test suallarının tələbələrə verilib, ya verilməməsi işidir. Bu geniş müzakirə olunmalıdır. Ya testlərin miqdarı artırılmalıdır və ya imtahana qısa müddət qalmış tələbələrə müəyyən sayda cavabsız test sualları verilməlidir. Bunundan başqa semestr boyu isə təməl və ixtisas fənləri üzrə peşə fəaliyyəti üçün vacib olan bilik və bacarıqların mənimsənilməsi təmin edilməli və qiymətləndirilməlidir. Natiq onu da vurğuladı ki, kredit sistemi ilə təhsil alan təbbələrin biliyinin qiymətləndirilməsi haqqında yeni Əsasnamə hazırlanır. Lakin yeni Əsasnaməyə qədər köhnə Əsasnamə öz qüvvəsində qalır.

Kredit sistemi ilə təhsil alan tələbələr kompyuterlə test üsulu ilə aparılan imtahanların nəticələrinə görə 72 appelyasiya müraciət olunmuşdur. Müraciətlərdən 44-ü əsassız hesab edilmiş, yalnız 28 halda ekspertlərin rəyinə görə müraciət əsaslı hesab edilmişdir. Bu testlərə 2 eyni cavabın olması ilə əlaqədardır.

Qış imtahan-məqbul sessiyasının gedişi daimi olaraq universitet rəhbərliyinin xüsusi nəzarətində olmuşdur. İmtahanların gedişi zamanı universitetin rektoru akademik Ə.Əmiraslanov şəxsən özü və onun tapşırığı ilə tədris işləri üzrə prorektor və dekanlar imtahanların gedisi zamanı imtahan zalında və imtahan zalından kənarda tələbələrlə görüşmüş, həmçinin kafedralarda olmuş, tələbələrin cavabları, ümumiyyətlə imtahanların təşkili ilə maraqlanmışlar. S.Əliyev çıxışının sonunda istər dekanlıqların, istərsə də kafedraların və professor-müəllim heyətinin bu sahədə görəcəyi işlərin hələ çox olduğunu, qeyd edərək kafedraların maddi-texniki bazasının ilbəil yaxşılaşması, yeni dərsliklərin və dərs vəsaitlərin nəşr olunması, professor-müəllim heyətinin keyfiyyətcə yeniləşməsinə baxmayaraq tədrisin nəticəsi ona uyğun gəlmir.

Ona görə də universitetdə çalışan aparıcı mütəxəssislərin tədrisin, tədris-metodik işin təşkili və yaxşılaşdırılmasında aktiv iştirak edəcəyinə əminliyini bildirdi.

Kafedra müdirləri Eldar Qasımov, Amalya Əyyubova, Əlihüseyn Hidayətov və Ədalət Həsənov çıxışlarında hesabatı qənaətbəxş qiymətləndirdilər. Onlar kredit sisteminin üstün və çatışmayan cəhətlərindən danışaraq testlərin təkmilləşdirilməsinə dair təkliflərini söylədilər.

Əhliman Əmiraslanov müzakirələrə yekun vuraraq çıxışlarda səslənən fikirlərə və irəli sürülən təkliflərə öz münasibətini bildirdi: "Həmişə demişəm, yenə təkrar edirəm ki, kredit sisteminin tətbiqi, imtahanların kompyuterlə aparılması hələlik ən optimal variantdır. Təbii ki, yeni bir üsulu təcrübəyə tətbiq edəndə ümumi nəticələrə mənfi təsir göstərən amillər də ortaya çıxır. Bu elə sistemdir ki, daim nəsə əlavə edilməlidir. Mən elə hesab edirəm ki, indi testlərin sayını bir az da artırıb sualları isə mürəkkəbləşdirmək lazımdır. Əgər hər hansı bir yeni təklif varsa onu da nəzərdən keçirməyə hazırıq".

Müxtəlif məsələlərdən söhbət açan rektor bildirdi ki, universitetin dekanlıq və şöbələrində ictimai əsaslarla çalışan bəzi kafedra əməkdaşları var ki, onlar işlərinin çox olmasından gileylənirlər. Əgər doğurdan da onlar bu işləri yetərincə apara bilmirlərsə həmin vəzifələrə yenilərinin götürüləcəyi barədə də xəbərdarlıq etdi.

Rektor onu da məlumat verdi ki, əməkdaşlara ayrılan vəsaitin miqdarının artırılacağı da nəzərdə tutulub .

Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə işini yekunlaşdırdı.

**MƏNSUR**

# Sudan səfiri akademik Əhliman Əmiraslanovla görüşdü

Fevralın 26-da Sudan Respublikasının ölkəmizdəki səfirliyinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetində (ATU) qonaq olub. ATU-nun rektoru, Millət vəkili, akademik Əhliman Əmiraslanov Sudanın fövqəladə və səlahiyyətli səfiri Mohamed Elias Mohamed əl-Haqqı qəbul edib.



Akademik Əhliman Əmiraslanov görüş zamanı Tibb Universitetinin fəaliyyəti, fakültələri, son illər istifadəyə verilmiş klinikaları haqqında məlumat verdi. Cənab səfir Mohamed əl-Haq isə öz növbəsində Tibb Universitetinin fəaliyyətini izlədiyini, bu ali təhsil müəssisəsinin əldə etdiyi nailiyyətlərlə bağlı Sudanda da məlumat verəcəyini bildirdi. Səfir öz qızının da ATU-nun II müalicə-profilaktika fakültəsində təhsil aldığını, buradakı təhsilin səviyyəsindən məmnun qaldığını bildirdi.

Görüş zamanı tərəflər Tibb Universiteti ilə Sudan arasında tələbə mübadiləsinin reallaşdırılmasının vacibliyindən də danışdılar. Bu haqda ilkin razılıq əldə olundu. Görüşdə ATU-nun elmi işlər üzrə prorektoru İbrahim İsayev, beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Rəhimə Qabulova, xarici tələbələrlə iş üzrə dekan Gülər Seyidova, dekan müavini Niyazi Hacıyev iştirak ediblər.

# Fələstin səfiri ATU-da qonaq oldu

Dünən Fələstin hökumətinin Azərbaycandakı səfiri Nasser Abdul Kareem A. Raheem Azərbaycan Tibb Universitetində qonaq olub. ATU-nun rektoru, akademik Əhliman Əmiraslanovla görüşən səfir bundan əvvəl də Tibb Universitetində olduğunu deyib: "Sizləri özümə dost bilirəm, Azərbaycanda bu cür yüksək



səviyyəli təhsil ocaqlarının mövcudluğuna çox sevinirəm".

Ə.Əmiraslanov qonağa ATU-nun yaranma tarixi, bu təhsil-tədris mərkəzindəki klinikalar, onların fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verib. Rektor həmçinin Azərbaycan dövlətinin elm və təhsilə olan diqqəti, ölkəmizdə tibb sahəsində aparılan islahatlar haqqında danışıb. Görüşün sonunda qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunub.

# Tədris Terapevtik Klinikada MEDEA layihəsi üzrə növbəti məlumat günü keçirilmişdir

Fevralın 20-də Tədris Terapevtik Klinikada Azərbaycan Tibb Universitetinin iştirakçısı olduğu, Avropa Komissiyası Erasmus Mundus Proqramının 2013-cü ilin noyabr ayında start götürmüş MEDEA layihəsi üzrə növbəti məlumat günü keçirilmişdir. Universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Rəhimə Qabulova Avropanın 10 universiteti ilə tibb, əczaçılıq, stomatologiya, səhiyyənin təşkili, tibb bacısı təhsili kimi sahələrdə tələbə, magistr, müəllim, doktorant mübadiləsi imkanları haqda ətraflı məlumat vermiş, bu proqramın tələbələr və magistrlər üçün geniş imkanlar açdığı bir daha vurğulanmışdır. Görüşdə ATU-nun müxtəlif fakültələrində bakalavr və magistr pillələrində təhsil alan tələbələr iştirak etmişlər. Tədbirin sonunda tələbələri maraqlandıran suallar cavablandırılmışdır.

MEDEA proqramı haqda məlumatı əlavə olaraq, layihənin saytından almaq mümkündür: http://www.ema2-medea.com. Suallarla ATU-nun beynəlxalq əlaqələr şöbəsinə müraciət edə bilərsiniz. **Facebook səhifəmiz AMU ERASMUS MUNDUS.**

*ATU-nun mətbuat xidməti*

**Düzgün tibbi müayinə və müalicə olunmaq sağlamlığımızın qorunmasında ciddi faktorlardan hesab olunur. Bu səbəbdən hər birimiz çalışırıq ki, müayinə olunanda etibarlı sağlamlıq ocağı seçək, savadlı, peşəsinə hörmətlə yanaşan və işini dərindən bilən həkimlərə müraciət edək. Amma bəzən elə olur ki, seçimimizdə yanılır, sağlamlığımızı naşılara etibar etməli oluruq. Nəticədə isə bunun ağrısını çəkir, xoşagəlməz fəsadlarla üzləşirik. Onda isə gec olur...**

**Etibarlı, yüksək texnologiya ilə təchiz olunmuş səhiyyə ocaqlarının olduğu kimi, zamanında ictimaiyyətin diqqətinə çatdırılmamasında biz media orqanı və mənsublarının da günahı az deyil. Bu məqamı göz önünə alaraq nüfuzlu səhiyyə ocaqlarının birindən - ATU-nun Onkoloji Klinikasından reportaj hazırlamaq qərarına gəldik. Buradakı tibbi xidmətin səviyyəsi, müayinə və müalicələrin effekti, pasiyent və onların yaxınları ilə münasibəti əyani şəkildə izləmək və bunları oxucuların diqqətinə çatdırmaq istədik.**

# Ən çətin cərrahi əməliyyatların

### Klinika haqqında qısa arayış:

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı əsasında Nazirlər Kabinetinin 23 noyabr 2006-cı il tarixli 250 saylı qərarı ilə Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikası yaradılıb. Klinika universitetin onkologiya kafedrasının kliniki tədris bazasıdır. Onkoloji klinikanın tərkibinə klinik şöbələr, poliklinika-diaqnostika şöbəsi, laboratoriyalar daxildir. Klinika müasir tibbi avadanlıqlarla təchiz olunub və burada onkoloji xəstələrin müasir müayinəsi və müalicəsi üçün zəruri şərait mövcuddur ki, bu da tələbələrə onkologiya fənninin tədrisinin daha da yaxşılaşdırılmasına imkan verir. Akademik Əhliman Əmiraslanovun rəhbəliyi altında peşəkar tibb heyətinin fəaliyyət göstərdiyi klinikada ən çətin hesab olunan cərrahi əməliyyatlar uğurla həyata keçirilir.**



Klinikada pasiyentlərin hansı xəstəliklə qəbulu, cərrahi əməliyyatlar, aparılan müayinə və müalicələrin gedişi və s. müalicə işləri üzrə direktor müavini, baş həkim, dosent Nəsimi Qasımovun diqqət mərkəzindədir. Bunu hər səhər həkim personalı ilə keçirilən "Beş dəqiqəlik" (səhər toplantısı) müzakirələrdən də görmək mümkündür. Baş həkim iclasda iştirak edən həkimlərdən pasiyentlərin durumu barəsində ətraflı məlumat aldıqdan sonra onlara öz lazımi göstəriş və tövsiyələrini verdi.

### ...Tibbin səviyyəsindən razılıq

Müzakirələr bitdikdən sonra dəhlizdə ilk rastlaşdığımız pasiyentlərin yaxınları oldu. Onlara yaxınlaşaraq burada pasiyentlərə necə diqqət və qayğı göstərildiyini öyrənməyə cəhd etdik.

**Siyavuş Əliyev (pasiyent Ceyran Əliyevanın qohumu):**

- Fevralın 18-də klinikaya müraciət etmişik. Xəstə müayinə olundu. Həkimlər bildirdilər ki, əməliyyat olunmalıdır. İlk təəssüratımız müsbətdır. Biz klinikada həkimlərin xəstələrə münasibətindən razıyıq. Hazırda xəstəni İlkin həkim əməliyyat edir. Nəticəsini gözləyirik.



**Elmira Ağayarova (pasiyent Asif Ağayarovun həyat yoldaşı):**

- Həyat yoldaşımı müayinəyə gətirmişik. Müayinə olunub, mədəsində şiş var. Həkimlər Asifin müayinədən sonra ciddi müalicəsi ilə məşğul olurlar. Bunun müsbət nəticəsini görürük. Sağ olsunlar, əllərindən gələni əsirgəmirlər.

### Laboratoriyanın əlaqələri geniş spektrlidir

Sonra isə laboratoriyalarda vəziyyətlə, analizlərin götürülmə şəraiti ilə tanış oluruq. Demək olar ki, laboratoriyaların qarşısında növbədən tərpənmək olmur. Əvvəlcə patomorfoloji laboratoriyaya yaxınlaşırıq. Laboratoriyanın müdiri, tibb elmləri doktoru, professor **Habil Muradov** bu laboratoriyada sitoloji (hər hansı bir prosesin hüceyrə səviyyəsində öyrənilməsi), histoloji (hər hansı bir prosesin toxuma səviyyəsində öyrənilməsi), histokimyəvi (hər hansı bir toxumada gedən kimyəvi dəyişikliklərin öyrənilməsi), immunohistokimyəvi müayinələri, hər hansı bir toxumada bu və ya digər hüceyrəni aşkar edən spesifik onkoloji markerlərin tapılmasını həyata keçirməyin mümkünlüyünü deyir:

-Bundan əlavə, klinikanın patomorfoloji laboratoriyası ilə Tibb Universitetinin elektron mikroskopiya laboratoriyası arasında sıx əlaqələr yaranmışdır. Belə ki, şiş hüceyrələrinin ultrastruktur quruluşlarının tədqiqi və rəylərin dəqiqləşdirilməsi məhz bu laboratoriyanın köməyi ilə həyata keçirilir. Bizim laboratoriyada istənilən



material – qan, selik, sümük, əzələ, süd vəzi, mədə-bağırsaq sistemi və həmçinin istənilən orqandan götürülən şişlər müayinə olunur. Biz prosesin təbiəti və mənşəyi haqqında məlumat verir, şişin ilkin mənbəyini təyin edə bilirik. Şişin təbiəti haqqında məlumat isə xoş və ya bədxassəli olmasıdır. Əgər bədxassəli prosesdirsə, biz onun differensiosiya dərəcəsini müəyyənləşdirir, həmin xəstəyə şüa, kimyəvi dərman terapiyası və ya hər hansı müalicə tətbiq etməyi dəqiqləşdiririk. Bunun xəstə üçün çox böyük əhəmiyyəti var.

Qeyd edim ki, bizim tədqiqatlar müasir metodlarla həyata keçirilir və müasir aparatlardan istifadə olunur. Aparatların bir qismi ATU tərəfindən alınıb, digər qismi isə laboratoriyanın əməkdaşlarının qrant layihələrində iştirakı ilə əldə edilib. Aparatlar isə Amerika və İngiltərə istehsalıdır. Gördüyünüz kimi, müayinələr həddən artıq çoxdur. Təkcə gün ərzində laboratoriyada 20-yə yaxın histoloji müayinə müasir avadanlıqlar vasitəsi ilə yüksək keyfiyyətlə aparılır.

Laboratoriyamız həmçinin digər tədris və tibb müəssisələri ilə də sıx əlaqədə işləyir. Buna misal kimi, Travmatologiya, Hematologiya institutlarının və digər tibb ocaqlarının adlarını çəkmək olar. Əyalətlərdəki tibb müəssisələri ilə







də sıx əlaqlərimiz var. Laboratoriyamızda mütəxəssislər hazırlayır, onlarla elmi-praktik işlər görürük.

**Klinik və biokimyəvi laboratoriyanın fəaliyyəti haqqında isə laboratoriyanın müdiri, dosent Mehman Quliyev məlumat verir:**

-Diaqnostik üsulların hamısından istifadə olunan laboratoriyamız Almaniya, ABŞ istehsalı olan yüksək texniki səviyyəli cihazlarla təchiz edilib. Burada qanın ümumi analizi, geniş həcmdə qanın biokimyəvi analizləri, qanın laxtalanma sisteminin göstəriciləri, cərrahi

# uğurla aparıldığı klinika

əməliyyat üçün lazım olan hazırlıq tədbirlərinin hamısının diaqnostikası aparılır. Eyni zamanda laborator göstəricilərdən müalicə prosesinin gedişinə nəzarət etmək, xəstəliyin uzaq nəticələrini qiymətləndirmək, yəni proqnozlaşdırmaq məqsədilə istifadə edilir. Laboratoriyada onkoloji xəstəliklərin diaqnostikasında mühüm əhəmiyyəti olan çoxsaylı marterlərdən istifadə olunur. Bu isə xəstəliyi erkən müayinə etməyə, xoşxassəli şişləri vaxtında deprensasiya etməyə imkan yaradır.

Laboratoriyada çalışan 4 həkim, 2 tibb bacısı yüksək ixtisaslı tibbi kadrlardır və öz işlərini müvəffəqiyyətlə yerinə yetirirlər. Laboratoriyanın bazasından həm də universitetin tibbi-biologiya fakültəsi tələbələrinin klinik biokimyəvi-patoloji, biokimya ixtisasları üzrə tədris fənlərinin aparılması məqsədilə istifadə olunur.



Palatalardakı şəraitlə tanış olduqda isə yataq dəstlərinin, döşəkağlarının təmizliyi diqqətimizi çəkdi. Xəstələrdən birinə yaxınlaşdıq. **İlham Allahverdiyev** adlı pasiyent bağırsaq keçməzliyindən klinikaya müraciət etdiyini diqqətimizə çatdırdı:

- Özüm Neftçaladan gəlmişəm. Onkoloji Klinikaya gəlməmişdən öncə xəstəliyimlə bağlı bir neçə xəstəxanaya müraciət etdim. Amma vəziyyətimdə yaxşılaşma hiss olunmurdu. Buradakı həkimlərdən Allah razı olsun. Ağır vəziyyətdə klinikaya daxil oldum. Əməliyyat etdilər. İndi özümü sağlam hiss edirəm. Həkimlər, tibb bacıları hər cür qayğı göstərirlər. Ramiz həkimə, Ramilə xanıma qəzetiniz vasitəsilə təşəkkürümü bildirirəm.

Klinikada yuxarı kurs tələbələrinin praktiki dərsləri də yüksək səviyyədə aparılır. Söhbətləşdiyimiz tələbələrdən Mehriban Hüseynova, Əzizə Murtuzayeva, Saleh Boqouddinov, Bilqeyis Nağızadə və Leyla Hacıyeva xəstələrin müayinələrində iştirak etdiklərini, sonra birlikdə müzakirələr apardıqlarını söylədilər.

Dayaq-hərəkət orqanlarının onkologiya bölməsinin müdiri, dosent Elnur İbrahimovu da dinlədik. O, akademik Əhliman Əmiraslanovun rəhbərliyi ilə sümüklərdə, yumşaq toxumalarda və dəridə olan bəd və xoşxassəli törəmələrə görə müxtəlif həcmli cərrahi əməliyyatların icra olunduğunu dedi: "Sümük şişlərinə görə-sümükərin kənari rezeksiyaları, ekskoxleasiyalar və defektlərin autosümük və ortopedik plastikaları, sümüklərin seqmentar rezeksiyaları və defektlərin endoprotezlərlə əvəz edilməsi, qabırğaların, çanaq sümüklərinin rezeksiyaları, sümüklərin ekstripasiyaları, sikəstedici əməliyyatlar (amputasiya və ekzerfikalyasiylar) həyata keçirilir.



Yumşaq toxuma şişlərinə görə-şişlərin geniş kəsilib götürülməsi, xoşxassəli şişlərin çıxarılması, bəd və xoşxassəli dəri törəmələrin cərrahi yolla müalicəsi kimi çətin və mürəkkəb əməliyyatlar uğurla aparılır." Bölmədə çalışan tibb üzrə fəlsəfə doktorları Şamil Tağıyev və Sevinc Abdıyeva peşəkar mütəxəssis kimi insanlara keyfiyyətli tibbi xidmət göstərirlər.

Gündüz stasionarı şöbəsinə də baş çəkdik. Şöbənin müdiri, dosent Cəlil Camalov bildirdi ki, 10 çarpayıdan ibarət olan şöbədə müasir tələblərə cavab verən dərman müalicəsində bütün lokalizasiyalar üzrə müalicə, o cümlədən 16 yaşdan yuxarı bütün nozooloji vahidlər üzrə adyuvant və ya neoadyuvant dərman-terapiyası aparılır. 2013-cü il ərzində 6707 xəstə gündüz stasionarda müalicə almışdır. Gün ərzində 20-30 xəstə müvafiq olaraq dərman müalicəsi alır. Tibb üzrə fəlsəfə doktorları Kəmalə Zeynalova və Elçin Hüseynov üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlirlər.





Ginekologiya bölməsinin assistenti Günəş Kərimova ilə onkologiya kafedrasının auditoriyasında görüşdük. Bizimlə söhbətində bildirdi ki, ginekologiya bölməsinin müdiri Lala Əliyevadır. Bölmədə çalışan Rəsmiyyə Səfərova, Arzu Əliyeva, Nabat Aşurova, Rəna Hənifəyeva, Samirə Qarayeva və başqaları cərrahiyyə əməliyyatlarının aparılması üzrə peşəkar mütəxəssislərdir. Uşaqlıq cisminin xərçəngi ilə müraciət edənlərin sayı üstünlük təşkil etsə də, son illər uşaqlıq boynunun xərçəngi ilə müraciət edənlərin daha cavan olması və yumurtalıqların bədxassəli şişləri ilə müraciət edənlərin isə gecikmiş mərhələlərdə olması nəzərə çarpır. Əməliyyatlar bizdə müvəffəqiyyətlə aparılır, xəstələrin sayı həftə ərzində təxminən 10-13 arası olur. Məlumdur ki, uşaqlıq boynunun xərçəngi ən çox uşaqlıq boynunun eroziyasından əmələ gəlir. Ona görə də periferiyada uşaqlıq boynunun eroziyasını vaxtında müalicə etsələr, xəstəlik nisbətən azalar. Profilaktik baxışların sayını da artırmaq lazımdır ki, gələcəkdə xanımlarımız bu tipli xəstəliklərlə üzləşməsinlər. Onlara bu barədə ətraflı məlumat verilməlidir ki, sağlamlıqlarının qayğısına qalaraq, vaxtında həkimlərimizə müraciət etsinlər. Əsasən rayonlarda yaşayan xanımlar məlumatsız olduğundan, əksər hallarda klinikamıza uşaqlıq boyunun xərçəngindən gecikmiş halda müraciət edirlər. Bu da rayonlarda onkoloji problemləri bilən mütəxəssislərin azlığından irəli gələ bilər.

Yaxşı haldır ki, mütəxəssislər də yetişdirilir. Rezidentlər klinikada uğurla işləyirlər. Xəstəliklər müzakirə olunur, tələbələr ikinci assistent qismində əməliyyatlarda iştirak edirlər. Çalışırıq ki, onların bilik və təcrübələrini artırmaq üçün hər cür şərait yaradaq.

Bəzi statistik göstəriciləri isə klinikanın baş tibb bacısı Kəmalə Zülfüqarovadan alırıq. Öyrənirik ki, 2012-ci ildə klinikaya 9817, 2013-cü ildə 9386 nəfər xəstə daxil olub. 17 yaşadək olanlar 2012-ci ildə 47, 2013-cü ildə isə 79 nəfərdir. Xoşxassəli şiş diaqnozu ilə 2012-ci ildə 1460, 2013-cü ildə 1599 xəstə müalicə alıb.



2012-ci ildə 8312, 2013-cü ildə 7747 nəfərə bədxassəli şiş diaqnozu qoyulub. O cümlədən birincili bədxassəli şiş diaqnozlu xəstələr 2012-ci ildə 1187, 2013-cü ildə isə 1040 nəfər təşkil edib. 2013-cü il ərzində 2064 xəstə stasionar və 423 xəstə ambulator əməliyyat olunub.



Özləri ilə görüşə bilməsək də professor Namiq Əmirəliyev, dosentlər Nigar Mehdiyeva, t.e.d. Ramiz Bayramov, ali dərəcəli həkimlər Firəngiz Allahverdiyeva, Şahbaz Hənifəyev və başqaları haqqında da xoş sözlər eşidirik.

Həyəcanla həkimlərin qəbulunda gözləyən xəstələrə şəfa diləyib klinikadan ayrılırıq. Heç kəsin xəstəlikdən sığortalanmadığını da unutmayıb, səhhətində problem yaranan insanların dərdlərinə əlac etməyi bacaran təbibə tuş gəlmələrini arzulayırıq.

**Arif MƏMMƏDLİ,**
**Qabil ABDULLAYEV**
**Fotolar Cənnətalı Çingizindir**

# Xocalı soyqırımı anıldı

◆ **Fevralın 21-də Azərbaycan Tibb Universitetinin Əsaslı Kitabxanasında Xocalı soyqırımı faciəsinin 22-ci ildönümü ilə əlaqədar "Qan yaddaşımız - Xocalı Harayı" foto-stendin önündə anım mərasimi keçirildi.**

Tədbir iştirakçıları ilk öncə Xocalı soyqırımınında həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər, onların ruhuna rəhmət oxundu.

Sonra Azərbaycan Tibb Univeresitetinin elmi işlər üzrə prorektoru, əməkdar elm xadimi, professor İbrahim İsayev mərasimi açaraq, tarixdə xalqımızın başına gətirilən belə müsibətlərin çox olduğunu xatırlatdı. Əsaslı Kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Ziyafət Eminova Xocalıda törədilən soyqırım





haqqında ətraflı məruzə etdi. O, bu dəhşətli hadisənin beynəlxalq aləmdə yaddaşlardan silinməyən Xatın, Xirosima və Naqasaki kimi faciəli hadisələrdən geri qalmadığını söylədi.

Ümummilli liderimiz Heydər Əliyevin Xocalı soyqırımının 10-cu ildönümündə bu amansız hadisəyə verdiyi qiyməti xatırladtı: "Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni şovinist – millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin davamı və ən qanlı səhifəsidir".

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin bu soyqırımın 22-ci ildönümü ilə əlaqədar imzaladığı sərəncamla bağlı Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılması üçün görülmüş işlər barədə mərasim iştirakçılarına məlumat verdi.

Epidemiologiya kafedrasının müdiri, əməkdar elm xadimi, professor İbadulla Ağayev soyqırımla bağlı xatirələrini mərasim iştirakçıları ilə bölüşdü, həmin hadisələrin canlı şahidi olmuş insanlarla yaratdığı münasibətlərdən söhbət açdı.

Azərbaycan dili kafedrasının müdiri, dosent Akif Miriyev soyqırımlar barədə, BMT-nin erməni daşnaklarının işğal etdiyi Azərbaycan ərazilərinin azad edilməsi barədə 4 qətnamənin hələ də yerinə yetirilməməsindən və ümumxristian mafiyasının bu qərara maneə olmasından danışdı. Sonra Qəşəm Nəcəfzadənin Xocalıya həsr etdiyi şeirlə çıxışını tamamladı.

Əsaslı Kitabxananın əməkdaşı Təranə İsmayılova şair-yazıçı, əməkdar jurnalist Eldar İsmayılın "Xocalının dərdi haray, ay haray" adlı şeirini oxudu.

Komplektləşdirmə şöbəsinin əməkdaşı Əsgər Əsgərov ermənilərin Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların başına gətirdikləri müsibətlərdən, bu barədə görülməsi işlərdən danışdı.

Mərasimin sonunda İbrahim İsayev yekun nitqi söyləyərək gənc nəslə bu hadisəni heç zaman unutmamağı tövsiyə etdi.

Xocalı soyqırımınında həlak olanların ruhuna dualar oxundu.

◆ **Fevralın 26-da isə Azərbaycan dili və epidemiologiya kafedraları Xocalı faciəsinin 22-ci ildönümü nə həsr olunmuş anım tədbiri keçirdilər.**

Əvvəlcə faciənin başlanmasını əks etdirən kadrlar nümayiş etdirildi. Bundan sonra Azərbaycan dili kafedrasının müdiri, dosent Akif Miriyev Xocalı faciəsinin dəhşətlərindən, bu faciənin təkcə bizim xalqımıza qarşı deyil, ümumiyyətlə bəşər övladına qarşı törədilən vəhşilik kimi qiymətləndirdi və bu hadisənin qan yaddaşımıza hopdurulması, gələcək nəsillərin unutmaması üçün çox iş görülməli olduğunu diqqətə çatdırdı. Epidemiologiya kafedrasının müdiri, əməkdar elm xadimi, respublikanın Baş epidemioloqu, professor İbadulla Ağayev bildirdi ki, bu hadisələrin kökündə erməni-rus anlaşmasının bir məqsədi olub – bu torpaqlardan türkləri birdəfəlik çıxarmaq. Ona görə də biz bütün qüvvəmizlə bu məqsədin qarşısının alınmaq üçün bir vətəndaş, bir torpaq sahibi kimi daim mübarizə aparmalıyıq. Bu mübarizənin yollarından biri də belə tədbirlərdir. Biz gərək gənclərimizi tariximizi öyrənməyə, başımıza gətirilən müsibətlərin ictimai-siyasi, milli-etnik səbəblərini başa salmağa önəm verək.



"Təbib" qəzetinin baş redaktoru, əməkdar jurnalist Eldar İsmayıl isə xristianların 18-ci əsrdən başlayaraq qonşu xalqlara, o cümlədən azərbaycanlılara qarşı torpaq ədavətindən danışdı. Bildirdi ki, bizim xalqımıza qarşı törədilən Xocalı faciəsi öz qəddarlığı ilə birinci hadisə deyil. Onlar bundan da dəhşətli alçaqlıqları bizim başımıza gətiriblər. Daim mübarizəyə hazır olmalı, xalqımızı ayıq-sayıq olmağa çağırmalıyıq. O, çıxışının sonunda yenicə yazdığı "Hazır ol, xalqım!" adlı şeirini oxudu.

Tibbi profilaktika və tibbi biologiya fakültəsinin dekanı, dosent Aydın Məmmədovun çıxışı iştirakçıların mütəəssirliyini bir qədər də artırdı. O, bütün bu hadisələrin kökündə böyük dövlətlərin, o cümlədən Rusiyanın mənfur siyasətinin durduğunu dedi: «Xocalı faciəsinin ikinci ildönümündə "Təbib" qəzetində çap etdirdiyim məqalədə açıqca yazmışdım ki, bu faciə rus-sovet imperiyasının, onun ilk və son prezidenti, xalqımızın qatı düşməni Qorbaçovun davamlı cinayətlərinin növbəti təzahürüdür. Biz də belə ağır taleyə məhkum xalqlardan biri və bəlkə də birincisiyik».

Sonra $290^{a}$ qrup tələbələri Fidan Rüstəmli və Həyat Quliyeva xalq şairi Zəlimxan Yaqubun və şairə Məhsəti Musanın Xocalı faciəsinə həsr etdikləri şeirlərdən parçalar söylədilər.

Tədbirin sonunda "Xocalıya ədalət" silsiləsindən sənədli kadrlar göstərildi.

**Saşa Əliyev,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

**Eldar İSMAYIL**

## XOCALININ DƏRDİ HARAY...

Ulu tanrı, hardan gəldi bəd xəbər?
Bəd xəbərə ürək dözsün nə qədər?
İç dünyamdan bir ah qopdu bu səhər,
Xocalının dərdi haray, ay haray!

Bu milləti qırdıran kim, qıran kim?
İgidləri kürəyindən vuran kim?
Bilinmirsə kim müttəhim, kim hakim...
Xocalının dərdi haray, ay haray!

Dağı-daşı sac içində qovruldu,
Böyük-kiçik tank altında qırıldı.
Xocalının külü göyə sovruldu...
Xocalının dərdi haray, ay haray!

Nə qocası, nə cavanı seçildi,
Qadınların qızıl qanı içildi.
Körpələri xəzəl kimi biçildi,
Xocalının dərdi haray, ay haray!

Bədən getdi, qol dorğandı, baş dindi,
Göz ovuldu, göy ağladı, yaş dindi.
Torpaq yandı, yurd dağıldı, daş dindi...
Xocalının dərdi haray, ay haray!

Zülmü görüb zaman təzdən qocaldı,
Xatın kəndi bu vəhşətə mat qaldı.
Öz dərdini unudaraq ün saldı-
Xocalının dərdi haray, ay haray!

Aman Allah, tufana bax, tufana,
Şəhər zülmət, toz qarışıb dumana...
Saçın yolub dad eləyir hər ana,
Xocalının dərdi haray, ay haray!

Belə sərgi sərməmişdi bu dünya,
Belə dövran sürməmişdi bu dünya,
Belə qırğın görməmişdi bu dünya!
Xocalının dərdi haray, ay haray!

Qayasına mən başımı qoyaram,
Torpağını al qanımla boyaram.
Dünya boyu sızıldayar bu yaram...
Xocalının dərdi haray, ay haray!



Xocalının dərdi bizə qalx! -deyir.
Düşmənləri süngüsünə tax! -deyir.
Qılıncını nərə çəkib çax! -deyir.
Xocalının dərdi haray, ay haray!

Bu harayda Allah eşqi olmalı!
Axan qanlar qan yaddaşı qalmalı!
Bu qisası əzəl-axır almalı!
Xocalının dərdi haray, ay haray!
İnsanların mərdi haray, ay haray!

**1992**

## SUSDUN O GECƏ

*Başının üstünü buludlar aldı,*
*Fəryadın, ah-nalən göyə ucaldı.*
*Xocalı torpağın viranə qaldı,*
*Boğuldu haqq səsin, susdun o gecə.*

*Dərdinin ağrısı dözülməz oldu.*
*Gözlərin işgəncə şahidi oldu.*
*Gör neçə insanın gözü oyuldu,*
*Torpağın al qanı içdi o gecə.*

*Zülümlər, əzablar qismətin oldu,*
*Xarı bülbülün də kədərdən soldu.*
*Günahsız analar, bacı, qardaşlar*
*Düşmənin əlində oyuncaq oldu.*

**Jalə ƏLYEVA,**
*Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun əməkdaşı*

**Xocalıya ədalət**

## Həkim məsləhəti



- **Rubrikamızda bu dəfə diş xəstəlikləri, stomatologiya sahəsindəki yeniliklərlə bağlı mövzu haqqında ekspert rəyini təqdim edirik. Suallarımızı Azərbaycan Tibb Universitetinin terapevtik stomatologiya kafedrasının dosenti Rizvan Məmmədov cavablandırır.**

**Rizvan Məmmədov:** *"Son dövrlərdə stomatologiya sahəsində həm estetik, həm də funksional olaraq çox yüksək keyfiyyətə malik plomb materiallarından istifadə edilməklə yanaşı, implantologiya da geniş yayılmışdır."*

# «Dişlərimizə düzgün qulluq etmirik»

**- Azərbaycanda ən çox yayılmış diş xəstəlikləri hansılardır?**

-Azərbaycanda ən geniş yayılmış xəstəliklər karies və onun ağırlaşmaları olan parodont xəstəlikləridir. Onların əhali arasında yayılması 90% -dən çoxdur. Bundan başqa qeyri-karies mənşəli xəstəliklər, xüsusən də flüazor, selikli qişa xəstəlikləri də kifayət qədər (30%-dən çox) geniş yayılmışdır.

**- Azərbaycan əhalisi dişlərinə düzgün qulluq edirmi?**

-Bu sahədə mütamadi olaraq çoxlu sayda məqalələr çap edilməsinə və kütləvi informasiya vasitələrində tövsiyə xarakterli çıxışlar edilməsinə baxmayaraq, əhali arasında dişlərə düzgün qulluq edilməsi qənaətbəxş vəziyyətdə deyildir. Birincisi qeyd etmək lazımdır ki, hər bir şəxs gündə 2 dəfə dişlərini fırçalamalı və yeməkdən sonra ılıq su ilə yaxalamalıdır. Səhər və axşam yatmamışdan qabaq dişlərin təmizlənməsi mütləqdir. Bundan başqa hər bir şəxs həkimin məsləhətinə uyğun olaraq ağız boşluğunun gigiyenasına individual yanaşmalıdır. Ağız boşluğunun sanasiyası, kariesli dişlərin müalicəsi, ehtiyac olduqda ortopedik və cərrahi müalicə də vacib şərtlərdəndir.

**-Diş sağlamlığı üçün profilaktik olaraq nə etmək lazımdır?**

-Dişlərin sağlamlığı üçün profilaktika qaydalarına mütləq riayət edilməlidir. Bunun üçün ilk növbədə ağız boşluğunda sanasiya aparılmalı və diş daşları təmizlənməlidir. Bundan sonra dişlərin vaxtlı vaxtında fırçalanması, antiseptik vasitələrlə həkimin



göstərişinə üyğun olaraq qarqara edilməsi, kəskin acı, turş, şirin qidalardan bir qədər az qəbul edilməsi, ildə 2-3 dəfə ağız boşluğunda dişlərin vəziyyətinə nəzarət üçün həkim müayinəsindən keçməsi və s. profilaktik tədbirlərə aiddir. Bəzi regionlarda yod çatışmazlığı ilə əlaqədar yodlu duzlardan istifadə edilməsi də profilaktik tədbirlərə aiddir.

**-Stomatologiyada yeni hansı tendensiyalar, yeniliklər var? İmplantlar Azərbaycanda nə dərəcədə populyardır?**

-Son dövrlərdə stomatologiya sahəsində həm estetik, həm də funksional olaraq çox yüksək keyfiyyətə malik plomb materiallarından istifadə edilməklə yanaşı, implantologiya da geniş yayılmışdır. Artıq demək olar ki, bu sahədə stomatoloq-həkim hazırlığında implantologiya sahəsi də tibb universitetinin stomatologiya kafedralarında tədris olunmağa başlamış. Respublikada bu sahədə bir çox müasir implantoloji klinikalar yaradılmışdır. Bu sahədə müxtəlif kurslar açılmış və həkimlərin praktiki vərdişlərinin artırılması üçün böyük işlər görülməkdədir.

**Günel ASLANOVA,**
*ATU-nun mətbuat katibi*

# QİYMƏTLİ DAŞLAR MÜALİCƏ EDİR

## SİRKON







**Sirkon mineralı kimyəvi tərkibcə sirkonium-silikatdır - Zr $SiO_4$. Mineralın adı fars dilində olan sarqun - qızılı rəngli (farca Sar - «qızıl», qunn - «rəng» deməkdir) sözdən əmələ gəlmişdir. Daha gözəl olan qızılı-sarı və qırmızı sirkonla yanaşı qəhvəyi, sarımtıl-yaşıl, göy rəngli, rəngsiz və hətta qara rəngli sirkon də təsadüf edilir. Qızılı-qırmızı daşlar hiasintam adlandırılır.**

Qədim yunan əfsanəsinə görə Hiasint mübahisədə Günəş, işıq və müdriklik allahı Apollonun atdığı disklə öldürülmüşdür. Gənc oğlanın torpağa tökülmüş qan damcıları hiasint gülünə çevrilmişdir. Onlar da daşlaşaraq qiymətli daş olmuşlar. Zərgərlik işində çox vaxt qəhvəyi rəngli sirkon istifadə olunur. Onlar yandırıldıqdan sonra çox gözəl mavi rəng alırlar. Sirkon yataqlarının Braziliyanın, Seylonun, Birmanın ərazisində olması məlumdur. Eyni zamanda Avstraliya, Madaqaskar və Cənubi Norveçdə də sirkon tapılır. Rusiyada sirkon Qərbi və Cənubi Primoryedə, habelə Uralda hasil edilir.

Hazırkı dövrdə hesab edilir ki, sarı-qırmızı rəngli sirkonlar hipofizə, əzgiləbənzər vəziyə müsbət təsir göstərir və qara ciyərin işini stimullaşdırır, iştahanı yaxşılaşdırır. Onlar qəbizlik, mədənin zəifləmiş sekresiyası, pielonefrit və bağırsaqların atoniyası zamanı köməklik göstərir. Sirkon emosional müvazinətin əldə olunmasını təmin edir və yuxusuzluğu müalicə edir.

Uzaq keçmişdə qırmızı sirkon tacirlərin, artistlərin və səyyahların həmayili olmuşdur. Hesab edilir ki, sirkon əqli qabiliyyəti yaxşılaşdırır və elmlə məşğul olmaq arzusu həvəsləndirir. O, insana qəlbində öz gücünə, nikbinliyə və gümrahlığa inam yaradır.

Sirkon insanda təpədə yerləşən və baş beyin vəzilərini qidalandıran aktiv mərkəzə təsir göstərir. Bu daş mənəviliyin, dindarlığın və kosmosun ali qüvvəsi ilə əlaqənin inkişafını təmin edir.

Sirkonla bəzədilmiş zinət əşyalarını, əsasən, Qoç və Dolça bürcündə doğulanların taxması məqsədəuyğundur.

**Sahib ƏHMƏDOV,**
*Ümumi gigiyena və ekologiya kafedrasının dosenti*

## Kafedranın kitab rəfi

**S.A.Gürzəliyev, Z.B.Məmmədova, N.Q.Süleymanzadə, S.Ə.Həsənova, Ş.M.Balayeva, N.Q.İsmayılova "Uşaq və yeniyetmələr gigiyenası" resenzetlər: M.A.Kazımov, R.H.Əliyeva. (dərslik) Bakı, " Təbib", 2010. – 289 səh.**




Dərslikdə uşaq və yeniyetmələrin böyümə və inkişafı, sağlamlıq vəziyyəti, orqanizmin möhkəmləndirilməsi, onların əqli və fiziki fəaliyyətinin öyrənilməsi, habelə, uşaq müəssisələrinin planlaşdırılması, inşası, avadanlıqlarla təchizatının gigiyenası, uşaqların qidalanmasının fizioloji əsasları, onların təlim-tədris prosesinin gigiyenik qiymətləndirilməsinə aid müayinə üsulları verilmişdir.

Dərsliyə ən yeni müasir müayinə üsulları salınmışdır ki, bunlar uşaq və yeniyetmələrin tibbi təminatı, əmək və istehsalat tədrisinin təşkili, uşaq və yeniyetmələrin fiziki tərbiyəsi, orqanizmin funksional vəziyyətinin qiymətləndirilməsi və s. əhatə edir.

Kitab hazırlanarkən kafedranın pedaqoji təcrübəsi əsasında prinsipial məsələ kimi vahid tədris metodikası sisteminə əməl olunmasına xüsusi diqqət verilmişdir.

Ayrı- ayrı mövzuların tərtibi zamanı əsas məqsəd, tələbələrin gələcək ixtisaslarına uyğun olaraq bilik və bacarıqların artırılması, sərbəst işləmələri üçün vərdişlərin formalaşdırılmasından ibarətdir.

Dərslik Tibb Universitetinin tibbi profilaktika və pediatriya fakültələrinin tələbələri üçün nəzərdə tutulmuşdur. Bununla belə, kitab uşaq müəssisələrində, poliklinikalarda çalışan həkim-pediatrlar və GEM-lərin uşaq və yeniyetmələr şöbəsinin həkimləri üçün də faydalı ola bilər.

**S.A.Gürzəliyev, R.H. Əliyeva, R.A.Orucov, M.Y.Nəbiyeva "Əmək gigiyenası" resenzetlər: M.A.Kazımov, R.Ə.Çobanov, M.T.Meybalıyev, M.Ə.Babayev . (dərslik) Bakı, " Təbib", 2013. – 488 səh.**




Uzun illər Azərbaycan dilində əmək gigiyenasına aid dərsliyin olmaması bu fənnin bir elm kimi sistemli şəkildə tədrisində çətinliklər yaradırdı.

Hazırkı dərslik sanitar – epidemiolji xidmətin bir çox sahələri, o cümlədən sanitar- gigiyenik monitorinqləri, zərərli peşə risqlərinin qiymətəndirlməsini, yeni texnika və texnologiyaların işçi orqanizminə və əmək qabiliyyətinə spesfik və qeyri- spesfik təsirlərini, habelə onlardan qorunmaq üçün profilaktik tədbirlərin həyata keçirilməsi yollarının öyrənilməsini nəzərdə tutur.

Kitabda ümumi əmək gigiyenasının nəzəri bölməsinə daxil olan bütün mövzular peşə ilə əlaqədar yaranan xəstəliklər, əmək fiziologiyası, istehsalat mikroiqlimi, yüksək və aşağı atmosfer təzyiqi şəraitində əmək gigiyenası, əmək gigiyenasında və nanotexnologiyalar nanohissəciklər, o cümlədən fiziki, kimyəvi və bioloji istehsalat amilləri, istehsalat zəhərlərinin əsas xarakteri, sənaye allergenləri və peşə xəstəlikləri, sənaye konserogenləri, reproduktiv sağlamlıq, istehsalat işıqlanması və ventilyasiyası, fərdi mühafizə vasitələri (FMV) əmək gigiyenasında sanitar- epidemioloji nəzarət kimi məsələlər öz əksini tapmışdır.

Dərslik ATU-nun tibbi-profilaktika fakültəsinin proqramına uyğun olaraq tələbələr üçün nəzərdə tutulsa da, lakin ondan diplomdan sonrakı təhsil zamanı müvafiq ixtisas həkimləri, orta tibb məktəbinin tələbələri və müxtəlif sanitar nəzarəti orqanlarında çalışan mütəxəssislər də istifadə edə bilərlər.

Dərslikdə zərərli amillərin mənbələri, onların işçi orqanizminə mənfi təsiri, normallaşdırılması və profilaktika məsələlərinin işıqlandaralması üçün qüvvədə olan Dövlət Standartları, Sanitariya Qaydaları, metodik tövsiyələr və təlimatlardan istifadə edilmişdir.

Hər iki dərslik Azərbaycan Tibb Universitetinin Mərkəzi Tədris Metodik Komissiyasının təsdiq etdiyi proqrama uyğun olaraq tərtib edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

### Kafedraların dosentləri (fəlsəfə doktorları):

- Uşaq və yeniyetmələrin gigiyenası kafedrası - 1 yer (0,75 vahıd )
- Epidemiologiya kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer (0,5 vahid )
- Onkologiya kafedrası - 1 yer

### Kafedraların baş müəllimləri:

- Xarici dillər kafedrası - 1 yer
- Əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili kafedrası - 1 yer
- Farmkologiya kafedrası - 1 yer

### Kafedranın müəllimi:

- İctimai fənlər kafedrası - 1 yer

### Kafedraların assistentləri:

- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer (0,5 vahid)
- Histologia, embriologiya və sitologiya kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,75 vahid )
- Əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili kafedrası - 1 yer
- Əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili - 1 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer (0,5 vahid)
- Ümumi və toksikoloji kimya kafedrası - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti 28 fevral 2014-cü il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir: Bakı şəhəri- Az 1022, Bakıxanov küçəsi 23. Telefon: 597-10-08**

## "Procter & Gamble" şirkəti "Bluetooth" ilə təchiz edilmiş diş fırçası təqdim etmişdir

**"Procter & Gamble" şirkəti mobil qurğuya qoşulmaq üçün "Bluetooth" ilə təchiz edilmiş "Oral-B" brendi altında diş fırçasını təqdim etmişdir. Diş təmizləmək üçün qurğunun qiyməti təxminən 330 dollar təşkil edəcək və bu ilin yayında satışa çıxarılacaqdır.**

**Bundan başqa, "Oral-B" diş fırçası Barselonada keçiriləcək "2014 MWC" sərgisində nümayiş olunacaqdır.**

**Qurğunun yaradıcıları bildirmişlər ki, təqdim edilmiş qurğu dişlərin təmizlənməsi prosesini real vaxt rejimində izləməyə və istifadəçiyə tövsiyələr verməyə icazə verir. "Smartfon üçün tətbiq hər bir istifadəçi üçün dişlərin təmizlənməsinin optimal modelini seçməyə icazə verəcəkdir.**

### Etibarsız sayılır

Stomatologiya fakültəsinin V kurs, 722ª qrup tələbəsi Hacıyev Rüfət Arzuman oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə profilaktika fakültəsinin II kurs, 304ª qrup tələbəsi Nəbiyeva Minurə Arzu qızının adına verilmiş tələbə bieti itdiyi üçün etibarsız sayılır.

Həsənova Məlahət Əkbər qızına 1998-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatriya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Quliyev Mehti Arif oğluna 1993-cü ildə Azərbaycan Tibb Universiteti tərəfindən verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Dadaşova Natəvan Təhmasib qızına 2008-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən oftalmologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Hikmətli kəlamlar

*Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu yalnız ağıl sahibləri düşünüb dərk edərlər!*

**Qurani-Kərim, əl-Bəqərə surəsi, ayə 269.**

* * *

**Bəndələrinə de:** *«Danışdıqları zaman gözəl sözlər söyləsinlər. Şeytan onların arasına fitnə-fəsad sala bilər».*

**Qurani-Kərim, əl-İsra surəsi, ayə 53.**

* * *

Düz yolu tapan bəşəriyyət məhv olmaz. Yalnız mübahisə və münaqişə onu məhv edə bilər.

**Məhəmməd peyğəmbər (ə.s.)**

* * *

Haqsızlığın qarşısında əyilmə, çünki namusunla bərabər, haqqını da itirərsən.

**İmam Əli (ə)**

* * *

Yalnız sözdə deyil, həm də işdə hikmət sahibi ol!

**Nəsirəddin Tusi**

* * *

Hikmət bu dünyanın vücudunda qan,

Hikmətdir dünyada əbədi qalan.

**Şəhriyar**

* * *

Abi-həyat kimi sözüm həyat verər insanlara,
Arif olan feyz aparar, nadan isə dodaq büzər.
Məsləksizə hikmət dərsi, nadanlara öyüd neylər,
Ulağın da qabağına Gövhə r töksən, mat-mat süzər.

**Nəsimi**

* * *

Mənim qəlbim su ilə alov kimi incə və güclü ikən,
Nə üçün mən hər yaramazın qarşısında... alçalıram?!

**Əbül-Üla Gəncəvi**

* * *

Bədniyyətli adamların yaxşılığı olar bəd,
Yalanlarla fəxr etməyə onlar etmişdir adət.
Doğruluqla yox işləri, ataları bilinmir,
Nə Adəmdən törənmişlər, nə İsadan – budur sirr.

**Xaqani**

* * *

Bir itə bir tikə çörək verəndə,
Unutmaz yüz kərə bassan da daşa.
Alçağa bir ömür çörək yedirtsən,
Bir dəfə tünd olsan, başlar savaşa.
Əqli hərəkət, əxlaqı hərəkətin əsasıdır.
Nəfsi özbaşına buraxsan insanı alçaqlığa,
Cilovlayıb istiqamət versən – Kamala çatdırar.

**Nəsirəddin Tusi**

* * *

Ədalət kainatın ruhudur.

**Ö.Xəyyam**

* * *

...Kim sənə pislik edərsə, ağlı naqisdir onun,
Kim səni dostu bilərsə, məncə, o, nadan deyil!...

**Qətran Təbrizi**

* * *

*Yurdumuz yolunda şəhid olmaq şərəflidir. Şərəfli ölümdən qorxma. Yaramaz adamın vicdanını oyatmaq üçün onu silləmək lazımdır.*

**Aristotel**

**Hazırladı : Röya KƏLBİQIZI**

## Apple şirkəti, infarktı əvvəlcədən müəyyən edəcək



**◆ Stressin, gərginliyin və bir çox faktorların əmələ gətirdiyi infarkt, yaş artdıqca təhlükəli olur.**

Bu baxımdan infarkt önləyici imkanlardan və proseduralardan (düzgün qidalanma, idman məşqləri, nizamlı yuxu və s.) istifadə əhəmiyyətlidir.

Bunların sayəsində infarkt tez aşkarlanaraq yaxşı müalicə edilə bilər. Xüsusən, ürək böhranlarını əvvəlcədən göstərən cihazlar təsirlidir.

ABŞ-ın elektron nəhəngi Apple infarktı əvvəlcədən müəyyən edəcək cihaz hazırlayıb. Apple bu cihazı yaxın zamanlarda satış bazarlarına çıxaracaq.

San Francisco Chronicle qəzetində bu mövzu ilə əlaqədar xüsusi məqalə də dərc edilib.

Şirkətin səs mütəxəssisi Tomlinson Holman bu lahiyə haqqında açıqlama verib. Proyektdə əsas məqsəd damarlarda axan qanın səsinin izlənilməsi olacaq.

Şirkətin səhiyyə məqsədli tətbiqləri artıracağı da bildirilir.

## İnfrared uzaqdan ölçən termometr



Medisana şirkəti, inkişaf etdirdiyi FTN 76120 - İnfrared uzaqdan ölçmə termometr ilə körpələrin hərarətini o yatarkən belə onu narahat etmədən, uzaqdan (5 smdən) ölçə bilən termometr hazırlayıb. Eyni zamanda körpənin olduğu mühiti, duş suyu istiliyini nəzarət altında saxlamaq istəyən analar üçün mühüm rolu oynayır.

Kliniki cəhətdən təsdiq olunan «uzaqdan ölçmə termometri» texnolji baxımdan bir çox tələblərə cavab verir.

Çox funksiyalılığı ilə fərqlənir, hərarətdən əlavə mühitin və mayelərin də istiliyini ölçür.

Bu cihaz (FTN 76120- İnfrared) sayəsində uşaqları narahat etmədən hərarətin səviyyəsini məsafədən bilmək olur.

Mütəxəssislər körpənin ilk duş suyu istiliyinin ana qarnındakı mühit temperaturu (37° C) ilə eyni dərəcədə olmasını məsləhət görür.

Edilən elmi tədqiqatlara görə uşaq psixologiyasının inkişafında bunlar əhəmiyyətlidir.

Həmçinin, körpənin olduğu mühit ilə hamam suyunun istiliyinə nəzarət etmək olur. Hər dəfə 1° C interval götürməklə 33° C-yə qədər sabitləşdirmək mümkündür.

Bu cihaz bir saniyədə 0 ilə 100° C arasında temperatur səviyyələrini etibarlı bir şəkildə ekranda əks etdirir. Bir dəqiqədən sonra avtomatik olaraq bağlanır.

Bundan əlavə dəyişən ekran rəngi və səsli xəbərdarlıq sistemi ilə aşağı və yüksək temperaturu göstərir, 12 dəfə ölçüməni yaddaşda saxlayır.

## Cib telefonu ilə saxta dərmanlar müəyyən ediləcək



Türkiyədə dərman sahəsində maraqlı bir metod tətbiq edilib. Artıq satışa təqdim edilən məhsulların saxtalığı «dərman izləmə sistemi»-nin mobil tətbiqləri sayəsində də müəyyən ediləcək. Yəni cib telefonu ilə dərmanların istifadəyə yararlı olub olmadığını bilmək olacaq.

İnkişaf etdirilən tətbiqdə vətəndaş dərman qutularının üzərindəki kvadrat kodu ağıllı cib telefonlarına oxudaraq ya da əllə sorqulayaraq satın aldığı dərmanın vəziyyəti haqqında məlumat əldə edəcək. Beləliklə saxta, bazardan toplanmış və ya son istifadə etmə tarixi keçmiş dərmanlardan xəbərdar olacaq, bunun sayəsində vaxtı keçmiş dərman istifadəsindən ötəri əmələ gələ biləcək çətinliklər önlənəcək. Dərman üzərindəki kvadrat kod oxunduqda son istifadə etmə tarixi göstəriləcək və ona uyğun xəbərdarlıq olunacaq. Əgər saxta və ya qaçaq dərmandırsa 'Dərman sistemdə qeydli deyil' şəklində xəbərdarlıq çıxır. Bu mərhələdə ekranda 'bildir' düyməsi gəlir. Vətəndaş bu dərmanı haradan aldığına dair bölməni doldurduqda isə Türkiyənin Səhiyyə Nazirliyi hərəkətə keçərək, lazımi ölçü götürəcək.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 132